"Azərbaycan Respublikasının Gənclər Fondu tərəfindən qrant müsabiqəsi çərçivəsində və müsabiqədənkənar maliyyələşdirilən layihələrin icrasının yekunları ilə bağlı resipiyentlərdən tələb olunan sənəd və materialların Siyahı"sına Əlavə 2

**AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCLƏR FONDU TƏRƏFİNDƏN QRANT MÜSABİQƏSİ ÇƏRÇİVƏSİNDƏ VƏ MÜSABİQƏDƏNKƏNAR MALİYYƏLƏŞDİRİLƏN LAYİHƏLƏR ÇƏRÇİVƏSİNDƏ MALLARIN (İŞLƏRİN VƏ XİDMƏTLƏRİN) ALIŞI ÜZRƏ**

**MAKSİMAL QİYMƏT HƏDLƏRİ**

| № | Malların (işlərin və xidmətlərin) adları | Vahid | Qiymət |
|---|---|---|---|
| 1 | Gündəlik yaşayış xərci (Bakı) | 1 nəfər | 50 AZN |
| 2 | Gündəlik yaşayış xərci (region) | 1 nəfər | 35 AZN |
| 3 | Gündəlik yemək xərci (nahar və ya şam, gündə 2 dəfəyədək) | 1 nəfər | 15 AZN |
| 5 | Çay-kofe fasiləsinin təşkili (Bakı Konqres Mərkəzi və 5 ulduzlu Mehmanxanalarda) | 1 nəfər | 15 AZN |
| 6 | Çay kofe fasiləsinin təşkili (1 dəfə üçün, gündə 2 dəfəyədək) | 1 nəfər | 5 AZN |
| 7 | Nəqliyyatın icarəsi (Bakı-region, km nəzərə almaqla) | 1 gün | 400 AZN |
| 8 | Təlimçi xidməti | 1 gün | 300 AZN |
| 9 | İntellektual oyunlar üçün sualların hazırlanması | 1 sual | 5 AZN |
| 10 | Ekspert xidməti | 1 gün | 150 AZN |
| 11 | Təlim və tədbir üçün zal icarəsi | 1 gün | 300 AZN |
| 12 | Təlim və tədbir üçün zal icarəsi (Bakı Konqres Mərkəzi) | 1 gün | 600 AZN |
| 13 | Foto-çəkiliş | 1 gün | 150 AZN |
| 14 | Video-çəkiliş | 1 çarx | 250 AZN |
| 15 | Videomontaj (qısa təsviri video-hesabatın hazırlanması) | 1 çarx | 300 AZN |
| 16 | PR xidməti (sosial şəbəkələrdə və mediada ödənişli təbliğat) | 1 ay | 300 AZN |
| 17 | İştirakçılar üçün köynək (qısaqol, üzərində 3 rəngli çapla) | 1 nəfər | 20 AZN |
| 18 | İştirakçılar üçün köynək (uzunqol, üzərində 3 rəngli çapla) | 1 nəfər | 22 AZN |
| 19 | İştirakçılar üçün papaqlı cemper (uzunqol, üzərində 3 rəngli çapla) | 1 nəfər | 35 AZN |
| 20 | İştirakçılar üçün gödəkçə (uzunqol, üzərində 3 rəngli çapla) | 1 nəfər | 60 AZN |
| 21 | Bel çantası (loqolu) | 1 ədəd | 25 AZN |
| 22 | İştirakçılar üçün papaq (loqolu) | 1 nəfər | 8 AZN |
| 23 | Mətbəə xərcləri - kitab çapı (40 səhifəyədək, rəngli üzlüklü) | 1 ədəd | 8 AZN |
| 24 | Mətbəə xərcləri - kitab çapı (80 səhifəyədək, rəngli üzlüklü) | 1 ədəd | 12 AZN |
| 25 | Buklet (broşur) | 1 ədəd | 0,80 AZN |
| 26 | Flayer | 1 ədəd | 0,50 AZN |
| 27 | Poster (A3) | 1 ədəd | 2 AZN |
| 28 | Poster (A2) | 1 ədəd | 3 AZN |
| 29 | Dəvətnamə, diplom və sertifikat | 1 ədəd | 2 AZN |

| | | | |
|---|---|---|---|
| 30 | Çərçivəli diplom və sertifikat | 1 ədəd | 5 AZN |
| 31 | Bəc | 1 ədəd | 3 AZN |
| 32 | Layihənin adının qeyd olunduğu rolap | 1 ədəd | 100 AZN |
| 33 | Layihənin adınınr qeyd olunduğu banner, taxta karkasla | 1 kv.m. | 25 AZN |
| 34 | Layihənin adının qeyd olunduğu banner, metal karkasla | 1 kv.m. | 50 AZN |
| 35 | Hədiyyə xarakterli mal-material (məlumat daşıyıcısı, suvenir və s.) | 1 ədəd | 14 AZN |
| 36 | Hədiyyə xarakterli mal-material (fəxri qonaqlar, yarış və müsabiqələrin qalibləri, fərqləndirilən gənclər üçün) | 1 ədəd | 60 AZN |
| 37 | Dəftərxana ləvazimatları (qələm, bloknot, qovluq) | 1 nəfər | 3 AZN |
| 38 | Dəftərxana ləvazimatları (qələm, bloknot, qovluq loqolu) | 1 nəfər | 10 AZN |
| 39 | Çadır və yataq ləvazimatlarının icarəsi | 1 gün | 30 AZN |

Qeyd 1: Ezamiyyə xərclərinin məbləği və xaricdə keçirilən tədbirlərdə iştirakçıların yaşayış və qida xərcləri Azərbaycan Respublikasının Nazirlər kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli və 20 iyun 2018-ci il tarixli 269 nömrəli qərarı ilə təsdiq olunmuş normativlərə uyğun olaraq hesablanır.

Qeyd 2: Layihəyə cəlb olunmuş işçilərin əmək haqqı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamında göstərilən minimum aylıq əmək haqqı məbləğindən az olmamalıdır.

Qeyd 3: Fond tərəfindən resipiyentin təsdiqlənmiş büdcəsi üzrə ayrılan maliyyə vəsaitinin 40 %- qədəri əmək haqqı fonduna yönəldilə bilər. Bu müddəa mülki hüquqi müqavilələr əsasında xidmət göstərən şəxslərə (təlimçi, ekspert, rejissor və s.) şamil olunmur.

Qeyd 4: Əmək haqqı fondu istisna olmaqla layihənin digər xərc istiqamətlərinə maksimal faiz limitləri təyin olunmur.

Qeyd 5: Tədbir üçün zal icarəsi müsabiqədən kənar maliyyələşdirilən layihələrdə, xüsusi hallarda, Fondla razılaşdırmaqla göstərilən maksimal alış qiymətindən daha yuxarı ola bilər.

Qeyd 6: Digər xərclər üzrə maksimal alış qiymətləri müvafiq olaraq aidiyyəti normativ hüquqi aktlara uyğun və ya əksini tapmadığı təqdirdə bazar qiymətlərinə uyğun tənzimlənir.

Qeyd 7: Elektron və innovasiya xarakterli malların (işlərin və xidmətlərin) (proqram təminatının, veb-sayt, elektron portal, mobil tətbiqin yaradılması və təkmilləşdirilməsi daxil olmaqla) maksimal alış qiyməti Gənclər Fondunun İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin mütəxəssisinin ekspert rəyi əsasında müəyyən olunur. Layihə çərçivəsində istifadə olunan xüsusi proqram təminatı üçün lisenziyaların alınması və proqram təminatının icarəyə götürülməsi (Zoom, Microsoft Teams, Airtable və s. daxil olmaqla) proqram təminatının istehsalçısının rəsmi veb-saytında göstərilən qiymətlərə uyğun olaraq və müvafiq vergilər nəzərə alınmaqla həyata keçirilir.

Qeyd 8: Təlimçi və ekspert xidməti üzrə ödənişlər edilən zaman təlimçinin/ekspertin ezam olunmasına ehtiyac yarandığı təqdirdə, nəqliyyat və yaşayış xərcləri təlimi təşkil edən təşkilat tərəfindən layihə çərçivəsində qarşılanır və ya xidmət haqqına əlavə olunaraq ödənilir.

Qeyd 9. Layihələrə təlimçi qismində Azərbaycan Respublikasının Gənclər Fondu tərəfindən formalaşdırılan Təlimçi Məlumat Bankında qeydiyyata alınan şəxslər cəlb olunur.